*Azərbaycan Respublikası təhsil nazirinin 29 mart 2022-ci il tarixli F-148 nömrəli əmri ilə təsdiq edilmişdir*

# Məktəblilər arasında “Könlüm keçir Qarabağdan” adlı respublika incəsənət festival-müsabiqəsi haqqında

# ƏSASNAMƏ

### I. Ümumi müddəalar

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2022-ci il tarixli 124s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Şuşa İli” ilə bağlı Tədbirlər Planı”nın 10-cu bəndinin icrası, Azərbaycan Respublikası Prezidentinin 2022-ci ili “Şuşa İli” elan etməsi ilə əlaqədar bu Əsasnamə ilə keçirilən müsabiqə Şuşa şəhərinin zəngin abidələrini, memarlıq komplekslərini, göz oxşayan füsunkar təbiətini uşaq və gənclərin yaddaşına həkk etdirmək, milli mədəniyyəti və incəsənəti təbliğ etmək, yeni istedadları üzə çıxarmaq, xüsusi bacarığa malik olan uşaq və gənclərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədi daşıyır.

### II. Festival-müsabiqənin şüarı:

“Könlüm keçir Qarabağdan”.

### III. Respublika uşaq incəsənət festival-müsabiqəsinin (bundan sonra - festival-müsabiqə) keçirilməsinin əsaslandırılması və məqsədi:

• uşaqları Şuşa Tarix Memarlıq Qoruğu, onun Azərbaycan mədəniyyəti, tarixindəki yeri, işğal illəri və işğaldan sonrakı dövrü ilə tanış etmək;

• uşaqları milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə etmək;

• uşaqların bədii-estetik səviyyəsini yüksəltmək, incəsənət və mədəniyyətin ayrı-ayrı növləri üzrə istedadları üzə çıxarmaq və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək;

• uşaqları vətənpərvərlik, həmçinin torpağa, dövlət rəmzlərinə, tariximizə hörmət ruhunda tərbiyə etmək;

• uşaqların asudə vaxtlarının səmərəli və mənalı təşkilini təmin etmək, onların hərtərəfli şəxsiyyət kimi formalaşmasına dəstək olmaq;

### IV. Festival-müsabiqə çərçivəsində keçirilən müsabiqələr:

• İfa üzrə respublika müsabiqəsi;
• Rəqs üzrə respublika müsabiqəsi;
• Dram sənəti üzrə respublika müsabiqəsi;
• Təsviri incəsənət və dekorativ tətbiqi-sənət üzrə respublika müsabiqəsi.

### V. Festival-müsabiqənin keçirilməsi şərtləri və qaydaları:

Festival-müsabiqədə respublikada fəaliyyət göstərən ümumtəhsil məktəbləri, lisey və gimnaziyaların (incəsənət yönümlü ümumtəhsil müəssisələri istisna olmaqla) 11-17 yaş arası istedadlı şagirdləri iki yaş qrupunda (11-14 yaş və 15-17 yaş) iştirak edirlər. Festival-müsabiqədə incəsənətin və yaradıcılığın müxtəlif janr və növləri üzrə fəaliyyət göstərən kollektivlər, dərnək və studiyalar, solo ifaçılar, rəqqaslar, bədii qiraətçilər, musiqiçilər, rəssamlar, dekorativ-tətbiqi sənətin müxtəlif növləri üzrə məşğul olan istedadlı uşaqlar iştirak edə bilərlər.

**Festival-müsabiqənin ifaçılıq nominasiyaları:**

- orkestr və ansambllar;
- vokal ifaçılığı;
- xalq çalğı alətləri;
- nəfəsli alətlər;
- zərb alətləri;
- simli alətlər;
- aşıq musiqisi;
- bədii qiraətçilər;
- muğam və təsniflərin final mərhələsi qaliblərinin seçilməsi Gənclərin Respublika Bədii Yaradıcılıq Evi tərəfindən aparılacaqdır (elektron poçt: *grbye@mk.edu.az;* əlaqə nömrəsi: 012-568-42-19).

Festival-müsabiqədə iştirakçıların ifası mövzuya uyğun olmalı, 3-4 dəqiqədən, kollektiv üzvlərinin sayı 10 nəfərdən çox olmamalıdır. Kollektiv və tək ifaçıların çıxışlarında folklorumuzdan, klassiklərdən, müasir şair və bəstəkarların əsərlərindən istifadə etməklə yanaşı, doğma vətənimizə məhəbbət, torpaqlarımızın azadlığı və bütövlüyünü tərənnüm edən əsərlərə geniş yer verilməlidir. Musiqilər əvvəlcədən CD disk, fleş kart və digər məlumat daşıyıcılarında təqdim edilməlidir.

**Festival-müsabiqənin rəqs üzrə nominasiyaları:**

- milli;
- bal;
- müasir;
- solo;
- folklor qrupları və rəqsin digər janrları üzrə final mərhələsinin qaliblərinin seçimi 3 nöməli Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən aparılacaqdır (elektron *poçt:ugim-3@mk.edu.az;* əlaqə nömrəsi: 012-421-54-66 ).

Festival-müsabiqədə iştirak edən rəqs kollektivləri üzvlərinin sayı 8-12 nəfərdən çox olmamalı, ifa müddəti 3-4 dəqiqə olmalıdır. Kostyumlar rəqsə uyğun seçilməli, musiqilər əvvəlcədən CD disk, fleş kart və digər məlumat daşıyıcılarında təqdim edilməlidir.

**Festival-müsabiqənin təsviri incəsənət və dekorativ tətbiqi sənət nominasiyaları:**

- rəsm;
- xalçaçılıq;
- qobelen;
- dulusçuluq (keramika);
- bədii oyma;
- bədii şüşə;
- toxuma və bədii tikmə;
- batika və digər növlərin final mərhələsinin qaliblərinin seçimi 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən aparılacaqdır (elektron *poçt:ugim-1@mk.edu.az;* əlaqə nömrəsi: 012-597-13-42 ).

Festival-müsabiqənin təsviri incəsənət və dekorativ tətbiqi sənət nominasiyası üzrə hər iştirakçı yalnız bir işlə qatıla bilər. Təqdim edilən işlər mövzuya uyğun olmalı, məzmunu tam əks etdirməlidir. Rəsmlər A3 formatda sərbəst texnika ilə işlənməli, işlərin arxasında aşağıdan sağda 9x12 ölçüdə kağız üzərində şagird barədə məlumatlar qeyd edilməli və bərkidilməlidir.

Festival-müsabiqənin zona mərhələsində I yerlərin qalibi olmuş işlərin respublika mərhələsinə təqdim edilməsi zamanı iş prosesindən minimum 30 dəqiqəlik video görüntü CD disk, fleş kart və digər məlumat daşıyıcılarında 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinə təqdim edilməlidir.

Festival-müsabiqənin zona mərhələsində I yerlərin qalibi olmuş şagirdlər respublika mərhələsində münsiflər heyətinin iştirakı ilə əyani formada verilən mövzuya uyğun rəsmlər çəkəcək. Yekunda çəkilən rəsmlərin arasından qaliblər müəyyən ediləcəkdir.

Festival-müsabiqənin dram (məktəb teatrı) nominasiyası üzrə final mərhələsinin qaliblərinin seçimi 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən aparılacaqdır (elektron *poçt:ugim-2@mk.edu.az;* əlaqə nömrəsi: 012-472-72-63).

Dram (məktəb teatrı) nominasiyası üzrə iştirak edən qruplar sayı 8-10 nəfərdən çox olmamalıdır. Təqdim olunan dram əsərlərindən parça, dialoq və yaxud kompozisiya 4-5 dəqiqədən çox olmamalı və canlı ifa olunmalıdır.

Festival-müsabiqədə iştirak etmək üçün təhsil müəssisələri onlara təqdim edilmiş xüsusi formanı doldurmalı və 7 aprel 2022-ci il tarixindən gec olmamaq şərti ilə aidiyyəti üzrə rayon (şəhər) təhsil şöbələrinə təhvil verməlidirlər.

Festival-müsabiqənin mütəşəkkil, o cümlədən Əsasnamənin şərtlərinə uyğun olaraq keçirilməsinə, festival-müsabiqəyə qatılacaq iştirakçıların nominasiyalar üzrə seçimlərinin obyektiv aparılmasına Nazirlik tərəfindən yaradılmış respublika münsiflər heyəti nəzarət edəcəkdir.

Festival-müsabiqə 3 mərhələdə keçirilir:

Rayon (şəhər) mərhələsi 2022-ci ilin aprel ayının 15-dək keçirilir. Bu mərhələdə rayon (şəhər) təhsil şöbələri (idarələri) tərəfindən yaradılmış münsiflər heyətinin iştirakı ilə təhsil müəssisələrindən festival-müsabiqəyə qatılmış şagirdlərin seçimi aparılır. Əsasnamənin tələblərinə uyğun olaraq rayon (şəhər) mərhələsində zona mərhələsində iştirak edəcək şagirdlər seçilir. Rayon mərhələsində 1-ci yerlərin qalibləri zona mərhələsində iştirak etmək hüququ qazanırlar.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi paytaxtın rayonları üzrə hər rayondan nominasiyalar üzrə 1-ci yerlərin qaliblərini ümumiləşdirməklə nəticələrini Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinə təqdim edirlər (elektron poçt: *rugim@mk.edu.az,* əlaqə nömrəsi 012-492-57-67). Nazirliyin birbaşa tabeliyində fəaliyyət göstərən lisey və gimnaziyalar məktəbdaxili seçimlərin nəticələrinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinə göndərilməsini təmin edirlər.

Zona mərhələsi 2022-ci ilin aprel ayında keçirilir.

Bu mərhələdə rayon və şəhərlər üzrə I yerlərin qalibləri zona mərhələsində iştirak etmək hüququ qazanırlar. Zonalara ezam edilən qaliblər haqqında protokollar zona mərhələsi keçirilən rayon (şəhər) təhsil şöbəsində (idarəsində) yaradılmış təşkilat komitəsinə təqdim edilməlidir.

Zona mərhələsinin münsiflər heyəti zonalar üzrə təşkilat komitəsi tərəfindən Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrinin nümayəndələri daxil edilməklə yaradılır.

Zona mərhələsi aşağıda qeyd olunan şəhər və rayonlarda keçirilir:

- Sumqayıt şəhəri, Şuşa, Abşeron, Xızı, Qubadlı, Zəngilan, Qobustan və Şamaxı rayonları 25 aprel 2022-ci il tarixində Sumqayıt şəhər 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində;
- Lənkəran şəhəri, Masallı, Astara, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonları 8 aprel 2022-ci il tarixində Lənkəran şəhər Mədəniyyət Mərkəzində;
- Quba, Xaçmaz, Qusar, Siyəzən və Şabran rayonları 25 aprel 2022-ci il tarixində Quba rayon Mədəniyyət Mərkəzində;
- Şirvan şəhəri, Salyan, Neftçala, Hacıqabul, Sabirabad, Saatlı, İmişli və Cəbrayıl rayonları 25 aprel 2022-ci il tarixində Salyan rayon Uşaq-Gənclər İnkişaf Mərkəzində;
- Gəncə şəhəri, Ağstafa, Qazax, Tovuz, Şəmkir, Daşkəsən, Gədəbəy, Göygöl, Samux, Kəlbəcər və Xocalı rayonları 25 aprel 2022-ci il tarixində Gəncə Dövlət Dram Teatrında;
- Mingəçevir və Naftalan şəhərləri, Yevlax, Goranboy, Göyçay, Ucar, Zərdab, Kürdəmir və Ağdaş rayonları 25 aprel 2022-ci il tarixində Mingəçevir Dövlət Dram Teatrında;
- Qəbələ, Balakən, Zaqatala, Oğuz, Qax, Şəki, İsmayıllı və Ağsu rayonları 25 aprel 2022-ci il tarixində R.Ocaqov adına Şəki şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzində;
- Ağdam, Tərtər, Xocavənd, Bərdə, Ağcabədi, Füzuli, Beyləqan və Laçın rayonları 25 aprel 2022-ci il tarixində Füzuli Dövlət Dram Teatrında;
- Bakı şəhərinin 12 rayonu üzrə 25 aprel 2022-ci il tarixində saat 11.00-da Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzində;

**Qeyd:** Bakı şəhəri üzrə zona qalibləri Bakı şəhərinin 12 rayonunun hər birindən nominasiyalar üzrə seçilirlər.

Zona mərhələsində I yerlərin qalibi olmuş iştirakçılar Bakı şəhərində keçiriləcək final mərhələsində iştirak etmək hüququ qazanırlar.

Final mərhələsi:

- İfa üzrə final mərhələsi 12 may 2022-ci il tarixində saat 11.00-da Bakı şəhərində 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində keçirilir (ünvan: Bülbül prospekti 89; əlaqə nömrəsi: 012-568-42-19);
- Rəqs üzrə final mərhələsi - 6 may 2022-ci il tarixində saat 11.00-da Bakı şəhərində 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində (ünvan: Bülbül prospekti, Lev Tolstoy 176; əlaqə nömrəsi: 012-421-54-66);
- Dram sənəti üzrə respublika mərhələsi - 11 may 2022-ci i tarixində saat 11.00-da Bakı şəhərində 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində (ünvan: Xətai rayonu, Xudu Məmmədov 37; əlaqə nömrəsi: 012-372-72-63);
- Təsviri incəsənət və dekorativ-tətbiqi sənət üzrə final mərhələsi - 12 may 2022-ci il tarixində saat 11.00-da Bakı şəhərində 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin Təsviri Sənət Qalereyasında (ünvan: Azadlıq prospekti 16/21; əlaqə nömrəsi: 012-498-15-52).

**Qeyd:** Final mərhələsinə təqdim edilən hər bir laureatın (qrupun) müvəffəqiyyətli çıxışı üçün lazımi rekviziti (müxtəlif musiqi alətləri, CD və fleş kartda ifa etdiyi nömrənin müşayiəti) rayon (şəhər) təhsil şöbələri tərəfindən təmin edilməlidir.

### VI. Festival-müsabiqəyə yekun vurulması

Müsahibələrin, digər material və obyektlərin müəllif hüquqları yalnız Təşkilatçıya məxsusdur. Bu o deməkdir ki, iştirakçıların valideynləri onların qanuni təmsilçiləri kimi iştirakçıların festival-müsabiqəyə qoşulmasına icazə verməklə bu Qaydalarla tanış olduqlarını və razılıq verdiklərini bildirirlər. İştirakçılar (qanuni təmsilçilər) Təşkilatçı tərəfindən festival-müsabiqə ilə bağlı təşkil olunan press-konfranslarda, televiziya proqramlarında iştirak edəcəklərinə dair razılıq bildirirlər;

Təşkilatçıların festival-müsabiqənin keçirilməsi, hədiyyələrin və mükafatların müəyyən edilməsi, iştirakçıların müsabiqədə iştirak etməsi ilə əlaqədar məsələlər ilə bağlı qərarları bütün iştirakçılar üçün zəruridir.

**Qeyd:** Festival-müsabiqədə iştirak edən ümumtəhsil məktəblərinin nəticələri cari ilin yekunlarında qiymətləndirilmə zamanı nəzərə alınacaqdır.

### VII. Qaliblərin mükafatlandırılması

Məktəblilər arasında “Şuşa İli”nə həsr olunmuş “Könlüm keçir Qarabağdan” adlı respublika incəsənət festival-müsabiqəsində I, II, III yerlərin qalibləri Təhsil Nazirliyinin Fəxri Fərman və qiymətli hədiyyələri ilə təltif olunacaqdır.

Qaliblərin mükafatlandırılması və yekun konsert 1 iyun 2022-ci il tarixində Şuşa şəhərində keçiriləcəkdir.

## Məktəblilər arasında “Şuşa İli”nə həsr olunmuş“Könlüm keçir Qarabağdan” adlı respublika incəsənət festival-müsabiqəsinin

## TƏŞKİLAT KOMİTƏSİ

**Qurbanov Firudin İsa oğlu,**
*Azərbaycan Respublikası təhsil nazirinin müavini, sədr*

**Əliyev Elnur Ələddin oğlu,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyi Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri, üzv*

**Əliyev Elnur Qəzənfər oğlu,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyi Ümumi təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri, üzv*

**Şirəliyev Qeyrət Fərhad oğlu,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyi Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin sektor müdiri, üzv*

**Salmanova Maral Saday qızı,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyi Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin baş məsləhətçisi, üzv*

## Məktəblilər arasında “Şuşa İli”nə həsr olunmuş “Könlüm keçir Qarabağdan” adlı respublika incəsənət festival-müsabiqəsinin

## MÜNSİFLƏR HEYƏTİ

***Rəqs nominasiyası üzrə:***

**Rüfət Xəlilzadə,**
*Azərbaycan Respublikasının Xalq artisti - sədr*

**Fərid Əliyev,**
*Azərbaycan Respublikasının Əməkdar artisti - üzv*

**Aytən Bünyatova,**
*Azərbaycan Dövlət Akademik Rəqs Ansamblının solisti, xoreoqraf-baletmeyster - üzv*

***Təsviri incəsənət və dekorativ tətbiqi-sənət nominasiyası üzrə:***

**Ziyadxan Əliyev,**
*Əməkdar incəsənət xadimi, Azərbaycan Rəssamlar İttifaqının şöbə müdiri, professor - sədr*

**Aydın Rəcəbov,**
*Azərbaycan Xalq rəssamı, Rəssamlar İttifaqının şöbə müdiri - üzv*

**Məmmədhüseyn Hüseynov,**
*Əməkdar incəsənət xadimi, Azərbaycan Rəssamlar İttifaqının üzvü, professor- üzv*

***Dram sənəti nominasiyası üzrə:***

**Azad Şükürov,**
*Azərbaycan Respublikasının Əməkdar artisti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, aktyor və bədii qiraətçi - sədr*

**Şükufə Musayeva,**
*Azərbaycan Respublikasının Xalq artisti, “Tərəqqi” medalı və Prezident mükafatçısı - üzv*

**Yadigar Muradov,**
*Azərbaycan Respublikasının Əməkdar artisti, Şuşa Dövlət Musiqili Dram Teatrının direktoru, aktyor-rejissor, “Tərəqqi” medalı mükafatçısı- üzv*

***Bədii qiraət nominasiyası üzrə:***

**Nurəddin Mehdixanlı,**
*Azərbaycan Respublikasının Xalq artisti - sədr*

**Əli Nurzadə,**
*Azərbaycan Respublikasının Xalq artisti - üzv*

**Firəngiz Mütəllimova,**
*Azərbaycan Respublikasının Xalq artisti - üzv*

***Mahnı nominasiyası üzrə:***

**Azər Zeynalov,**
*Azərbaycan Respublikasının Xalq artisti - sədr*

**Gülyaz Məmmədova,**
*Azərbaycan Respublikasının Xalq artisti - üzv*

**Təyyar Bayramov,**
*Azərbaycan Respublikasının Əməkdar artisti - üzv*

**Firuz Səxavət,**
*Azərbaycan Respublikasının Əməkdar artisti, Azərbaycan Milli Konservatoriyasının baş müəllimi - üzv*

**Aytən Məhərrəmova,**
*İncəsənət Gimnaziyasının müəllimi - üzv*

***Xalq çalğı alətləri nominasiyası üzrə:***

**Ağasəlim Abdullayev,**
*Azərbaycan Respublikasının Xalq artisti - sədr*

**Elşən Mansurov,**
*Azərbaycan Respublikasının Xalq artisti - üzv*

**Fəridə Məlikova,**
*Azərbaycan Respublikasının Əməkdar artisti - üzv*